

# Ömrün mənası

**55 yaş! Ömrün bu pilləsi hələ uşaq və gənc ikən adama nə qədər də uzaq, əlçatmaz görünür. Amma elə ki, həyatın mübarizə dolu burulğanına düşürsən, başın qayğılara qarışır - vaxtın necə ötdüyünü lazımınca duya bilmirsən. Bu məqamı istisnasız şəkildə hamı yaşayır. Beləcə dünən sevilə-sevilə əzizlənən körpə bir də baxırsan ki, el-obanın diqqət kəsildiyi cavana, cavan isə nurani bir qocaya dönüb.**

**Amma mənalı ömür sahibləri, məsuliyyətli və çevik kəslər bunun fərqinə varmır, ona həvalə edilən missiyanı ləyaqətlə daşımağa çalışır, yaşdan söhbət düşəndə də özünəməxsus tərzdə gülümsünürlər: "Ömrün hər fəsli gözəldir..."**

Rahib müəllim də belə insanlardandır. Onun yaşını səciyyələndirən, qoşa dayanmış iki 5-ə baxanda sanki bu rəqəmlər yubilyarın xarakterik xüsusiyyət və işinə verilən qiymətləri təzahür etdirir.

Məmmədov Rahib Seyfulla oğlu 1956-cı il iyul ayının 30-da Quba şəhərində anadan olub. Sumqayıt Orta İxtisas Musiqi məktəbini bitirib. Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) məzunudur.

Əmək fəaliyyətinə Qusar şəhər 7 illik uşaq musiqi məktəbində müəllim kimi başlayıb. 1986-cı ildən Şirvan (keçmiş Əli-Bayramlı) şəhəri uşaq musiqi məktəbində tar müəllimi kimi pedoqoji fəaliyyətini davam etdirib.

1990-cı ildə yeni yaradılmış Hacıqabul Rayon Uşaq Musiqi məktəbinin direktoru olub. O, bu vəzifədə 10 ildən artıq bir müddətdə çalışıb. Etimadı layiqincə doğrultduğundan 2001-ci ildə Hacıqabul Rayon Mədəniyyət Şöbəsinin, 2006-cı ildə rayon mədəniyyət və turizm şöbəsinin müdiri təyin edilib.

2 övladı, 3 nəvəsi var. Övladları ali təhsilli musiqi müəllimləridir.

R.Məmmədovun rəhbərlik etdiyi şöbəyə gəlincə, şəbəkəyə 70-ə yaxın mədəniyyət müəssisəsi daxildir.

Bu kollektivlər işlərini günün tələbləri səviyyəsində qurmağa çalışır, əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif tədbirlər həyata keçirirlər. Rayonda xalq yaradıcılığı, bədii özfəaliyyət kollektivlərinin işi xeyli yaxşılaşmış və genişlənmişdir.

Maddi-texniki bazanı gücləndirmək məqsədi ilə rayonun mədəniyyət müəssisələrinin əksəriyyəti bərk və yumşaq inventarlarla təmin edilmiş, bəzi mədəniyyət müəssisələrində isə əsaslı və cari təmir işləri aparılmışdır.

Şəhər 7 illik uşaq musiqi məktəbinin şagirdləri nazirliyin təşkilatçılığı ilə keçirilən bütün Respublika müsabiqələrində fəal iştirak edirlər.

**"Azərbaycan Respublikasında Kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Mərkəzi Kitabxananın Web portalı yaradılmış, İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi qurulmuşdur. Qeyd edək ki, MKS-in www.Haciqabul-mks.az saytı 2009-cu ilin fevralından fəaliyyət göstərir.**

**Y. ARAPLI**

<u>Redaksiyadan:</u> Əlamətdar gün münasibətilə yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız yubilyarı ürəkdən təbrik edir, ona gərəkli işlərində uğurlar diləyir.